**Namazova Səba Azad qızı**[84]

## ERMƏNİLƏRİN XALQIMIZA QARŞI TÖRƏTDİKLƏRİ SOYQIRIMLAR CÜMHURİYYƏT DÖVRÜ PUBLİSİSTİKASIINDA

XX əsrin başlanğıcında milli düşüncənin inkişafına rəvac verən müstəqil ruhlu yazıların, publisistik nümunələrin ayrı-ayrı mətbu orqanlarda silsilə şəkildə dərc olunmasına məxsusi diqqət yetirilirdi. Xalqın azad yaşamaq uğrunda mübarizəsi daha da genişlənməkdə idi.

Tarixən ciddi siyasi və mənəvi zərbələrə məruz qalmış Azərbaycan xalqı bütün baş verənlərə rəğmən, öz milli dəyərlərini zaman-zaman qorumuş, taleyüklü sınaq anında da inadla suveren dövlət haqqını bərpa etmək naminə imkanlarını səfərbər edərək irəliyə doğru addımlayırdı. Bu yöndə publisistik sözün ifadə imkanlarından istifadəyə daha artıq dərəcədə ehtiyac duyulurdu.

O cür məsul dönəmdə ədəbi-bədii fikrin qarşısında cəmiyyətdə mövcud olan ictimai problemlərin işıqlandırılması məsələsi son dərəcə ciddiyyətlə qoyulmuşdu. Həmin dövrdə Azərbaycanda çıxan dövri mətbuat orqanları sözsüz ki, milli oyanış, özünüdərk proseslərinin aparıcı vasitələrindən idilər.

Azərbaycanın müstəqilliyinə xələl gətirmək istəyən, dövlətçiliyini süquta uğratmaq üçün saysız cəhdlər göstərən xain qüvvələr ötən əsrin ilk onilliyinin sonlarında da öz mənfur niyyətlərini həyata keçirmək üçün səfərbər olmuşdular. Onlar həmin məqsədlə kütləvi qırğın aksiyaları törətmək, Azərbaycanın tarixən mövcud olan milli mənəvi sərvətlərini ələ keçirmək istəyirdilər. Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda fəal mübarizəni XX əsrin ilk iyirmi illik dövründə görkəmli publisistlər ayrı-ayrı mətbu orqanların səhifələrində dərc etdirdikləri yazılar vasitəsilə aparırdılar. Bu cür çağırışlardan biri Mirzəbala Məhəmmədzadənin “Açıq söz” qəzetinin 15 mart 1918-ci il tarixli sayında yer almışdı. Gənc türklərə xitabən yazılmış məqalədə müəllif onları vətənin bütövlüyü yolunda dönmədən çalışmağa, fədakarlığa səsləyirdi.

Buna rəğmən, 1918-ci il martın 31-də bolşevik və ermənilərin hərbi birləşmələri Azərbaycan xalqına qarşı amansızlıqla qətliamlar həyata keçirdilər. Bakı, Şamaxı, Quba, Salyan, Neftçala və başqa yerlərdə minlərlə insanın həyatına xüsusi qəddarlıqla son qoyuldu. Qanlı genosid aktlarının həyata keçirildiyi həmin dönəmdə çox sayda tarixi abidələr yerlə-yeksan edildi, “Novruz”, “Açıq söz”, “Turan”, “Kaspi” mətbəələri yandırıldı, Orucov qardaşlarının mətbəəsi dağıdıldı. Vəziyyət elə bir gərgin həddə çatdı ki, “Açıq söz”, “El həyatı”, “İstiqlal”, “Bəsirət”, “İttihad” qəzetləri də fəaliyyətlərini dayandırmalı oldular.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri qətliamların qurbanları sırasında ədəbi fikir, düşüncə adamları, görkəmli qələm sahibləri də vardı. Onlardan Məhəmməd Hadi, Abbas Səhhət və Cəfər Bünyadzadənin adlarını məxsusi vurğulamaq gərəkdir. Belə ki, məhz “Azərbaycan” qəzetinin 13 noyabr 1918-ci il tarixli sayında dərc edilmiş yazıda onların vəfatı ilə əlaqədar olaraq bildirilirdi ki, Abbas Səhhət bolşeviklər Şamaxıya hücum etdikləri zaman Gəncəyə getmək istəmiş, elə həmin vaxt da mənfur erməni-bolşevik qatilləri tərəfindən qarət olunmuşdu. Ağır mənəvi sarsıntıdan və aldığı xəsarətlər üzündən şair Gəncəyə gəldikdən sonra az keçmir ki, xəstələnərək vəfat edir. Məhəmməd Hadinin isə Gəncədə xain bolşevik və ermənilərin birləşmiş qüvvələrinə qarşı hərbi əməliyyatların gedişində həyatdan köçdüyü qeyd olunur. Bununla yanaşı, “Tuti” jurnalının redaktoru Cəfər Bünyadzadə də 1918-ci il mart ayının 31-də Bakıda ermənilərin törətdikləri qətliamların qurbanı olmuşdu.

Azərbaycan xalqına qarşı ermənilərin həyata keçirdikləri soyqırım aktları, törətdikləri çoxsaylı qanlı faciələr Cümhuriyyət dövrünün mətbuat və publisistikasının başlıca mövzusu idi. Belə ki, alovlu publisist və jurnalist Üzeyir Hacıbəyli “Azərbaycan” qəzetinin 31 mart 1919-cu il tarixli nömrəsində dərc olunmuş “31 Mart” adlı məqaləsində yazırdı:

“Mart hadisatı Azərbaycan tarixində mühüm bir səhifə işğal edib Azəri türklərinin istiqlal yolunda can verib qan tökdüklərini gələcək nəslə oxutduracaqdır. Bugünkü vəzifəmiz isə o qara günləri yaddan çıxartmamaq və buna görə də həmişə və hər an hazır olmaqdır. Böylə hazırlıq ki, bu hadisələr bir də təkrar edərsə, müdafiəsinə hazır olalım, Bunun üçün həm hökumətimizin, həm də millətimizin yaşaması lazımdır” [2].

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün satirik nəşrlərindən sayılan “Şeypur” jurnalının səhifələrində də ermənilərin törətdikləri qanlı əməllər pislənir, onların xain simasını kəskin şəkildə ifşa edən yazılar dərc olunurdu. İlk sayı 1918-ci il oktyabrın 5-də işıq üzü görmüş “Şeypur”un naşiri Səməd Mənsur, redaktoru isə Məhəmməd Əli Sidqi olmuşdur. Bu jurnal Azərbaycan Xalq Cümhuriyyəti ideallarını yaymaqla məşğul olur, bolşevik təbliğatına qarşı mübarizə aparırdı. Jurnalın əsas hədəflərindən biri də erməni daşnaklarının Qarabağda törətdikləri qətliamlar idi.

“Şeypur” jurnalın 1919-cu il 11 yanvar tarixli 13-cü nömrəsində “Azərbaycanlı” imzalı müəllifin “Erməni yuxusu” başlığı altında felyetonu dərc olunmuşdu. Həmin felyetonda ermənilərin qəddarcasına həyata keçirdikləri qətliamlara işarə edilmiş, Azərbaycanın müstəqilliyinə qarşı əks mövqedə olan bolşeviklər satirik gülüş hədəfi seçilmişdilər:

“Kerenski hökumətindən sonra Rusiyada baş qaldırıb dünyanı azad edəcəyini vəd edən füqəra tərəfdarı, bir nan firqə adamı “bolşoy” (yəni böyük adam) peyda olub... Həmin firqə Bakıda rəhmətlik Şaumyandan ibarət idi. Bakıda yaşlı iranlılardan bəziləri bu firqənin məramnaməsini qəbul edib, bərbad halda olan İranı abad etmək istəyirdilər” [5].

Bunuanla yanaşı,jurnalda milli dövlət qurmağın vacibliyi fikri oxuculara satirik dərginin dəst-xəttinə uyğun şəkildə belə çatdırılmışdı:

[84] **filologiya üzrə fəlsəfə doktoru Gəncə Dövlət Universiteti,** seba8080@mail.ru

"Mart hadisələrindən sonra suya batmış toyuq kimi suyun süzülə-süzülə, büzülmüş bir tərəfdə qalmışdın. Öz şəhərində, öz evində özgə yerdən gəlmişlərin əli altında əzilirdin. Küçədən keçəndə divar dibi yeriyib öz ana dilində danışmağa ehtiyat edirdin. Bu altı ay sənin üçün çox zülmlər olub. Lakin oyunlar üçün çalmağa şeypur olmayıb. İndi şükür olsun "Şeypur"umuzu partlayana qədər çalmağa başlayırıq".

Üzeyir Hacıbəyli ümumən publisistikasında Azərbaycan istiqlalının qorunub saxlanmasını, ölkənin ərazi bütövlüyünün təmini məsələsini ön planda saxlamış, ermənilərin xalqımıza qarşı zaman-zaman davam etmiş məkrli hərəkətlərini kəskin şəkildə tənqid və ifşa edən yazılara geniş yer ayırmışdır.

Keçən əsrin əvvəllərindən bu günədək davam edən ermənilərin xalqımıza qarşı silsilə şəkildə həyata keçirdikləri kütləvi qətliamları, azərbaycanlılara qarşı arasıkəsilməyən ərazi iddialarını, məkrli siyasətin müxtəlif məqamlarını Üzeyir Hacıbəyli yazılarında son dərəcə ciddiyyətlə şərh edir, satirik qələmlə münasibətini bildirirdi. Bir sözlə, görkəmli qələm sahibi dövrün ictimai-siyasi hadisələrini ardıcıl surətdə izləyərək onlara qarşı sərt mövqe nümayiş etdirirdi. Ədibin "Qarabağ haqqında", "Fitnələr qarşısında", "Qara təhlükə", "Qarabağ hadisatı", "Andranikin məsələsi" və s. publisistik yazıları bu qəbildəndir. Onun siyasi məzmun daşıyan "Kirimirlər", "Eyni müamilə gözləyirik", "Nə istəyirlər" kimi məqalələrində də ermənilərin əsl siması uzaqgörənliklə açılmışdır. Üzeyir Hacıbəylinin milli birliyə, həmrəyliyə çağırış ruhu ilə seçilən siyasi publisistikası çoxcəhətli yaradıcılığında xüsusi önəm daşıyır.

Bu baxımdan publisistin "Qarabağ haqqında" məqaləsində də dövrün ağrılı hadislərinin təfərrüatlarına varılmış, ermənilərin məkrli siması kəsərli bir şəkildə ifşa olunmuşdur. Məqalədən sətirlərə diqqət edək:

"Təqribən bir ay bundan əvvəl idi ki, Qarabağdan gələn ahu-fəryadlar həm hökumətimizi, həm də cəmiyyətimizi təhciz etməklə Azərbaycan torpağının bu hissəsinə xüsusi bir nəzər yetirilməsini tələb edirdi.

Nə olmuşdu orada?

Ermənilərin generalıədd olunan Andranik öz xunxar dəstəsi ilə Qarabağın Zəngəzur adlanan uyezdi üzərinə tökülüb müsəlman əhalisini qətlü qarət kimi quldurlara məxsus əməlləri ilə tədhiş edib buraları "müsəlmanlardan təmizləmək" istəyirdi" [1].

Azərbaycanda erməni genosidi, daşnakların irtica yönlü hərəkətləri, qəddarlıqları Azərbaycan milli mətbuatının "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Övraqi-nəfisə", "Əfkari-müəllimin", "Qurtuluş" kimi çeşidli nümunələrinin səhifələrində sərgilənən çoxsaylı publisistik yazıların da başlıca mövzusuna çevrilmişdi. Erməni qətliamına məruz qalmış dinc, günahsız xalqın ağrılı durumu mətbuatda ayrıca diqqət mərkəzində saxlanılırdı. Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Mirzəbala Məhəmmədzadə, Seyid Hüseyn və başqaları alovlu publisistik yazılarında bu ciddi, siyasi məsələdən hərtərəfli bəhs etmişdilər.

O dövrdə Azərbaycan istiqlalını təbliğ edən mətbu orqanlardan biri də Övraqi-nəfisə" idi və onun səhifələrində ermənilərin törətdikləri soyqırım və zorakılıq hərəkətləri daşnak ermənilərin vəhşilikləri barədə çeşidli publisistik yazılar dərc olunmuşdu.

Cümhuriyyət dövrü publisistikasının ən dəyərli nümayəndələrindən olan Məhəmməd Əmin Rəsulzadənin yazılarında da dövlət və dövlətçilik ideyalarına xidmət, xalqın milli mənəvi dəyərlərinin təbliği ön plana çəkilirdi.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı davamlı şəkildə həyata keçirilmiş qanlı terror hərəkətlərini əks etdirən daha bir ədəbi nümunə Seyid Hüseyn yaradıcılığına məxsusdur. Publisistik səciyyəli "Həzin bir xatirə. İsmailiyyə" və "İsmailiyyə" oçerklərinin hər ikisində milli ruhun ifadəsi konkret detallarla təqdim edilmişdir. Azərbaycanda törədilən mart hadisələri zamanı fiziki və mənəvi itkilərimizlə yanaşı, milli istiqlaliyyətimizin qərargahı hesab edilən tarixi "İsmailiyyə" binasının xain ermənilər tərəfindən yandırılması faktına bu yazıda diqqət yönəldilmişdir:

"Gözlərimə inanmaq istəməyirdim. İsmailiyyə, o milli əməllərimizin doğulduğu yer, o möhtəşəm bina, o Azərbaycan fikrini, Azərbaycan hürriyyət və istiqlaliyyəti-məfkurəsini bir ana kibi bəsləyib tərbiyə edən, millət qarşısında nəşr edən mərkəz, o gözəl və sevimli bina qəzəbli, həm də xəyanət nəticəsi olaraq məğlubiyyətdən dolayi qəzəbli bir qəhrəman kibi, məğlub olmuş bir qəhrəman kibi ərzi-vücud etməkdə, ona tamaşa edənlərə kinli-kinli baxmaqda idi" [3].

Erməni qəddarlığının növbəti misalı olan hadisəni əks etdirən "Həzin bir xatirə. İsmailiyyə" hekayəsi barədə professor Yaşar Qarayev belə yazırdı:

"Barbarlıq, adamyeyənlik (vandalizm!), mədəniyyəti və memarlığı dağıtmaq müsabiqəsində birinci yeri "İsmailiyyə"ni yandıran erməni daşnakları tutmuşdu. Humanizm və insanlıq əleyhinə, bəşər mədəniyyəti əleyhinə bu qəsdə qarşı vicdani-əxlaqi və mənəvi-humanitar fikrin ağrısı, üsyanı, harayı müsabiqəsində isə qələbə çələngini "Həzin bir xatirə. İsmailiyyə" hekayəsi ilə "Yaşıl qələm"in rəhbəri Seyid Hüseyn qazandı" [4].

O qanlı hadisələrdə öldürülən, məhv edilən təkcə xalqın qeyrətli oğul və qızları deyildi. Azərbaycanın misilsiz mədəniyyət abidələri də dağıdılmış, yerlə-yeksan olunmuşdu. Erməni daşnaklarının bu mədəniyyət genosidi publisistikada ayrıca müzakirə mövzusu seçilmişdi.

Qeyd edək ki, 1918-1920-ci illərdə də Azərbaycanda ideoloji sahədə mübarizənin ön sıralarında dövrü mətbuat durur, milli publisistika mövzu və ideyaca zənginləşir, xalqın gələcəyi ilə bağlı son dərəcə ciddi, taleyüklü məsələlərə cəsarətlə müxtəlif məzmunlu yazılarda toxunulurdu. O baxımdan "Azərbaycan türklüyünün ictimai-mədəni intibaha başlayıb tərəqqi etməsində ən qüvvətli amillərdən birini mətbuat təşkil etmişdir" fikri olduqca yerində səslənir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə də ictimai-siyasi və ədəbi-bədii fikrin formalaşmasında mətbuat vacib mövqe nümayiş etdirmiş, kəsərli silah olan publisistika vasitəsilə xalqa doğru yol göstərilmişdir.

**ƏDƏBİYYAT:**

1. "Azərbaycan" qəz., 30 yanvar 1919, № 101
2. "Azərbaycan" qəz., 31 mart 1919

3. “Istıqlal” qəz., 4 fevral 1920
4. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı: Elm, 2002, 740 səh.
5. “Şeypur” jurnalı, 11 yanvar 1919

***Açar sözlər:*** *Cümhuriyyət dövrü, publisistika, məqalə, soyqırım, yaradıcılıq*
*Ключевые слова: период Республики, публицистика, статья, геноцид, творчество*
*Key words: Republic period, publicism, article, genocide, creativity*

**РЕЗЮМЕ**

**Геноцид, совершенный армянами против нашего народа, в публицистике периода Республики**

В начале двадцатого века азербайджанская публицистика была тесно связана с народной жизнью, на страницах отдельных печатных органов публиковалось множество статей по вопросам, отражающим реалии жизни. Массовые погромы, учиненные армянами в Азербайджане, мотивы борьбы народа за самоопределение стали ведущей темой публицистики. Мирзабала Мухаммадзаде был одним из публицистов, который геноцид, совершенный армянами против азербайджанского народа, выбрал в качестве главной темы своего творчества. В серии его статей, опубликованных в 1919 году в газете «Басират», были явно раскрыты коварные намерения армяно-дашнакских сил.

В публицистике периода Республики учиненному армянами против нашего народа геноциду отдавалось особое место. Так, в своей статье под названием «31 марта», опубликованной в номере газеты «Азербайджан» от 31 марта 1919 года, Узеир Гаджибейли решительно заявил никогда не забывать эту болезненную историю и всегда оставаться на чеку.

**SUMMARY**

**Genocide committed by Armenians against Azerbaijani people in publicism of the Republic period**

At the beginning of the twentieth century, Azerbaijani publicism was closely associated with people's life, many articles were published on the pages of individual press on issues reflecting the realities of life. The mass massacres committed by Armenians in Azerbaijan, motives of people's struggle for self-determination became the leading topic of publicism. Mirzabala Muhammadzade was one of the publicists to choose the genocide committed by Armenians against the Azerbaijani people as the main theme of his creativity. The devious intentions of the Armenian Dashnak forces were clearly revealed in a series of his articles published in the “Basirat” newspaper in 1919.

The genocide committed by Armenians against our people was given a special place in publicism of the Republic period. Thus, in his article entitled “March 31,” published in the “Azerbaijan” newspaper dated March 31, 1919, Uzeyir Hajibeyli decisively stated never forget this painful history and always stay on the lookout.

***Rəyçi: prof.Asif Rüstəmli***